# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №01 (72) • 16.01.2012


AzadliqRadiosu.az


**Bakıda taksi sürücüləri yolu bağladılar** səh.2

**Zaqatalada dindarların saqqalını qırxıblar** səh.3

**Azərbaycan iqtisadi azadlığa görə 91-ci oldu** səh.4

**50 min manatlıq tibbi əməliyyatın aqibəti** səh.5

Əli Kərimli: **«Azərbaycanda Liviya variantı lazım deyil»** səh.6

**3 il əvvəl açılan bahalı beton yol təmirə dayanıb** səh.9

**Xristianların sayı azalır** səh.11

**Rəsulzadənin məxfi məktublarının toplandığı kitab çıxdı** səh.12


## Səməd Seyidov: «Bəli, korrupsiya var...»



*Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AzadlıqRadiosuna müsahibə verib:* "Bizdə korrupsiya komissiyaları da fəaliyyət göstərir".

səh.6

## Критиковать ислам опаснее, чем власть?



*"Я высказываюсь на тему о переменах, которые я бы хотел видеть в Азербайджане, но не могу открыто рассуждать о том, что ислам является препятствием на пути позитивных преобразований в Азербайджане, – говорит писатель, причисляющий себя к атеистам."*

səh.10

## Ramil Usubov rüşvət videosu ilə bağlı qərar verdi



Polislərin rüşvət aldığı həmin video 2011-ci il dekabrın 31-də Bakıda - Təhsil Nazirliyinin düz yanında çəkilib. Bir neçə yol polisi əməkdaşı qarşılarına çıxan maşınları saxlayıb "reyd" keçirir və sürücülərdən pul alırlar.

səh.9

**Bizim taksi**



# Bakıda taksi sürücüləri yolu bağladılar




**Yanvarın 13-də bir qrup taksi sürücüsü metronun «Neftçilər» stansiyası yaxınlığında yolu bağlayıb. Nəqliyyat Nazirliyi sovet istehsalı avtomobillərin taksi kimi fəaliyyətinə qadağa qoyur. Sürücülər də buna etiraz ediblər. Təxminən bir saat davam edən aksiyanı polis əməkdaşları dağıdıblar. Aksiya iştirakçıların-dan biri AzadlıqRadiosuna deyib ki, sürücüləri dəyənəklə döyüblər: «200-300 adam vardı. Döyüb dağıtdılar hamını. Həmişəki kimi dubinkanın ağzına verdilər. Bizim etirazımız Nəqliyyat Nazirliyinədir. Camaatı işsiz niyə qoyursunuz? Biz işləmək istəyirik. Bizə deyirlər ki, avtomobillər 2007-ci ildən o yana olmamalıdır. Rəngi ağ olmalıdır, naviqator qoyulmalıdır. Haradasa 1000 manatdan çox pul edir».**

Nəqliyyat Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Namiq Həsənov isə AzadlıqRadiosuna deyib ki, narazılıq edənlər qanunsuz fəaliyyət göstərənlərdir: «Bu gündən əsas şərt lisenziya almaqdır».

Yanvarın 13-dən Nəqliyyat Nazirliyi ilə Daxili İşlər Nazirliyi reydlərə başlayıblar. Onlar lisenziyasız işləyən, həmçinin sovet istehsalı olan avtomobillərin taksi kimi xidmətlərinə qadağa qoyurlar.

***Şahnaz Bəylərqızı***

# Ailəsi Turac Zeynalovun qəbrinin açılmasını istəyir...



Əshabəli Mustafayev və Gülnar Zeynalova

**2011-ci ilin avqustunda Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyində öldüyü bildirilən Turac Zeynalovun vəkilinin müraciətinə rəsmi cavab verilib. Bu barədə vəkil Əshabəli Mustafayev yanvarın 14-də Turac Zeynalovun ailə üzvləri ilə birlikdə keçirdiyi mətbuat konfransında məlumat verib. Vəkil deyir ki, Naxçıvan MTN-in istintaq şöbəsinin baş müstəntiqi Pərviz İsmayılovun imzası ilə verilən cavab məktubunda onu maraqlandıran sualların heç birinə aydınlıq gətirilməyib: «Yazılıb ki, "Turac Zeynalovun istintaq təcridxanasında vəfat etməsi barədə dedikləriniz sizin şəxsi təxəyyüllünüzün məhsuludur. İlk baxışdan sizin həmin məsələlərə qərəzli yanaşmanız görünür. Belə ki, müdafiəçi kimi internetdə şou yaratmağınız buna əyani sübutdur». Bütün cavab belə sözlərlə davam edir».**

Ə.Mustafayev Ombudsmandan da qaneedici cavab almadıqlarını deyir: «Ombudsman hadisə baş verəndən sonra demişdi ki, işi öz nəzarətinə alacaq. Amma bu qurumdan mənə verilən cavab MTN-in əvvəllər bizə verdiyi cavablardan elə də fərqlənmir».

Vəkilin Muxtar Respublika Prokurorluğuna etdiyi müraciətə isə indiyə qədər cavab verilməyib.

### AİLƏ QƏBRİN AÇILMASINA RAZIDIR

Turac Zeynalovun ailə üzvləri də deyir ki, hələ ekspertiza rəyini ala bilməyiblər. Turac Zeynalovun həyat yoldaşı Gülnar Zeynalovanın bildirməsinə görə, onlara yalnız ölüm kağızı verilib. Turac Zeynalovun atası Şuriyyə Zeynalov isə deyir ki, həqiqətin üzə çıxması üçün oğlunun qəbrinin açılmasına razıdır. Amma bir şərtlə ki, ekspertizanı Bakıdan olan mütəxəssislər aparsın: «Biz bu hadisələrdən sonra naxçıvandakılara inanmırıq».

Turac Zeynalov dövlətə xəyanətdə ittiham olunub və öldüyündən bu işin ona aid hissəsinə xitam verilib.

### ƏMƏK KİTABÇASINDA DÜZƏLİŞ

Vəkil Əshabəli Mustafayev deyir ki, Turac Zeynalovla birlikdə eyni ittihamla həbs olunanlardan 1-i 6 il azadlıqdan məhrum edilib. 3 nəfər isə sərbəst buraxılıb. Onların hamısı Naxçıvan aeroportunda sürücü işləyib. Müdafiə tərəfinin deməsinə görə, Turac Zeynalovun əmək kitabçasına da düzəliş edilib. Əvvəl kitabçada onun dövlət sirrini yaydığı üçün işdən çıxarıldığı yazılıb. Ölümündən sonra isə işdən çıxarılmaya səbəb kimi onun əmək öhdəliklərini kobud şəkildə pozduğu (Əmək Məcəlləsinin 70-ci maddəsinin 4-cü bəndi) qeyd edilib.

Mərhumun atası deyir ki, əmək kitabçasına belə düzəliş edilibsə, rəsmi qaydada Turac Zeynalovun üzərindən «dövlətə xəyanət» ittihamı götürülməli və o, bəraət almalıdır.



Turac Zeynalovun əmək kitabçasına da düzəliş edilib

### «TURAC ZEYNALOV SAĞLAM İDİ»

Həyat yoldaşı isə deyir ki, Turac Zeynalov MTN-ə aparılmazdan bir müddət əvvəl iş yerində tibbi müayinədən keçib. Onda hər hansı ciddi xəstəlik aşkar olunmayıb. Naxçıvan MTN-i isə Turac Zeynalovun dəri xərçəngindən əziyyət çəkdiyini, bədənində müxtəlif şişlər olduğunu və buna görə öldüyünü bildirirdi.

«Biz yenidən ekspertiza istəyirik ki, hər şey üzə çıxsın», - deyə Gülnar Zeynalova bildirir.

***Maarif Çingizoğlu***

# Zaqatalada dindarların saqqalını qırxıblar


Vasif Balaşovla Kamil Süleymanov

**Zaqatala rayonunda 3 nəfəri polis saxlayıb. Onların 2-sini saqqalı qırxılandan sonra buraxsalar da, Muxax kənd sakini İslam Ağalarova 4 sutka həbs verilib. Bu barədə AzadlıqRadiosuna polisə aparıldıqlarını iddia edən Yuxarı Tala kənd sakinləri Vasif Balaşovla Kamil Süleymanov məlumat verib.**

**Vasif Balaşov:** «Bizi təxminən 4 saata yaxın saxladılar. Dedilər ki, bir uşaq bizdən qorxub, saqqalarınızı qırxmalısınız. Buna etiraz etdikdə, bizi həbslə hədələdilər. Dedilər, ümumiyyətlə, sizi rayondan çıxarmaq lazımdır. Saqqalımızı qırxmayınca, bizi buraxmayacaqlarını bildirdilər. Yalnız saqqallarımızı qırxandan sonra bizi buraxdılar».

Zaqatala Rayon Polis Şöbəsindən isə həmin şəxslərin şöbəyə gətirilmədiyini, saqqallarının da polisdə deyil, bərbərxanada qırxıldığını deyirlər.

***Maarif Çingizoğlu***

# Vizanın sadələşdirilməsi üçün Avropa ilə danışıqlar başlayır

**Avropa ölkələri ilə viza rejiminin sadələşdirilməsi yönündə danışıqlar fevralda başlayacaq. Bu haqda jurnalistlərə Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Roland Kobia deyib: «Ümidvaram ki, Azərbaycanla viza rejiminin sadələşdirilməsinə dair danışıqları tez bir vaxtda yekunlaşdıra biləcəyik. O zaman Azərbaycan vətəndaşları Avropaya daha asanlıqla səyahət edə biləcəklər».**

Avropa Birliyi Nazirlər Şurası Avropa Komissiyasına Azərbaycanla viza rejiminin sadələşdirilməsi və readmissiya haqqında danışıqlara başlamaq üçün mandat verib. Viza rejimi dəyişdirilərsə, Avropaya getmək istəyən Azərbaycan vətəndaşları vizanı indikindən ucuz - 60 deyil, 30 avroya ala biləcəklər. Avropa Birliyi artıq Gürcüstan, Moldova, Ukrayna və Rusiya ilə viza rejimini sadələşdirib. Bunun nəticəsi olaraq həmin ölkələrə turist axını dəfələrlə artıb.

***Şahnaz Bəylərqızı***

# Zeynal Bağırzadə ilə görüşə icazə verildi

***Yanvarın 10-da ailə üzvləri həbsdə olan AXCP fəalı Zeynal Bağırzadə ilə görüşüblər. Bu haqda AzadlıqRadiosuna Zeynal Bağırzadənin qardaşı, AXCP Naxçıvan təşkilatının rəhbəri Yaşar Bağırsoy məlumat verib: «Muxtar Respublika Prokurorluğundan xəbər göndərdilər ki, ailə üzvləri ilə görüşə icazə verilir. Oğlu deyir ki, görüş vaxtı Zeynalın əhvali-ruhiyyəsi pis olmayıb. Görüş təkbətək olmadığından Zeynala işgəncə verilib-verilmədiyini öyrənə bilməyiblər».***

Bir müddət əvvəl Yaşar Bağırsoy qardaşına işgəncə verildiyini bildirmişdi. O, bu fikrində qalır: «Zeynala işgəncə verilməyibsə, heç bir təzyiqə məruz qalmayıbsa, mətbuata açıqlama verdiyimiz vaxt, həbsindən 2 gün sonra ailə üzvləri ilə onu görüşdürərdilər. Onda demək olardı ki, bu adama işgəncə verilməyib. İşgəncə məsələsinin ortaya çıxmasından 10-12 gün sonra görüşə icazə vermələri isə məndə şübhə və narahatçılıq yaradır».

Muxtar Respublika Prokurorluğu isə Zeynal Bağırzadəyə işgəncə verilməsi haqda deyilənləri təkzib etmişdi. Yaşar Bağırsoy bildirir ki, artıq qardaşına vəkil tutulub. Zeynal Bağırzadənin hüquqlarını vəkil Əshabəli Mustafayev qoruyacaq.

***Yafəz Əkrəmoğlu***

## AzadliqRadiosu.az-da yeni videolar

1. **Şaxta Babanı Bakı aeroportundan deportasiya edirlər (250Plyus)**
2. **Nəqliyyatın İntellektual İdarəolunma Sistemi**
3. **Yasamaldakı "Hüseyniyyə" qapadılıb**
4. **İranlı yazarlar Bakıda kitablarını təqdim etdi**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Nemət Pənahlını atasının dəfninə buraxmayıblar**


**Qazaxıstanda parlament seçkisində pozuntular olduğu bildirilir**


**Başər Əsəd hamıya amnistiya elan edib**

# Azərbaycan iqtisadi azadlığa görə 91-ci oldu

**Azərbaycan iqtisadi azadlığa görə dünyanın 179 ölkəsi arasında 91-ci yeri tutur. "Heritage" Fondu və «Wall Street Journal» yanvarın 12-də 2012-ci ilin İqtisadi Azadlıq İndeksini açıqlayıb. Ümumilikdə İndeksdə ölkənin durumu biznes, ticarət, fiskal və monetar siyasət, investisiyalar, maliyyə, əmək sahələrinin azadlığı, korrupsiyanın durumu, dövlət xərclərinin ÜDM-də yeri və mülkiyyət hüquqlarının təminatına görə qiymətləndirilib. Bütün bu göstəricilər üzrə 179 ölkə arasında ən yaxşı göstərici Honq-Konqda qeydə alınıb. Sinqapur, Avstraliya, Yeni Zelandiya və İsveçrə ilk 5-likdəki digər ölkələrdir.**




### AZƏRBAYCANIN GERİLƏMƏ SƏBƏBİ

Azərbaycan İqtisadi Azadlıq İndeksində 58.9 balla 91-ci yeri tutur. Ötən illə müqayisədə Azərbaycan 0.8 bal daha az toplayıb. Səbəbi isə, dövlət xərclərinin ÜDM-dəki payının artması və biznes sərbəstliyin azalmasıdır.

### QONŞULARLA MÜQAYİSƏ

İqtisadi Azadlıq İndeksində Azərbaycan 58.9 balla qonşularından ancaq İranı (42.3) və Rusiyanı (50.5) qabaqlayır. Ancaq Cənubi Qafqaz dövlətləri arasında Azərbaycan həm lider Gürcüstandan (69.4), həm də Ermənistandan (68.8) geridədir. Ayrı-ayrı parametrlərlə götürəndə, Azərbaycan Ermənistanı ancaq əmək azadlığı və




monetar azadlıqlarda, Gürcüstandan isə dövlət xərclərinin ÜDM-ə nisbətində yaxşı durumdadır. Türkiyə (62.5) ilə müqayisədə Azərbaycan biznes azadlığı, fiskal azadlıq, hökumətin xərcləri, monetar azadlıq, əmək azadlığı üzrə daha yaxşı durumdadır.

Azərbaycan bütün qonşuları arasında İrandan sonra mülkiyyət hüquqlarının ən pis qorunduğu yer kimi də hesabata da düşüb. İqtisadi Azadlıq İndeksinə əsasən, Gürcüstan 34-cü, Ermənistan 39-cu, Rusiya 144-cü, İran - 171-ci yerdədir. Ötənilki hesabatda Azərbaycan 179 ölkə arasında 96-cı sırada göstərilmişdi.

### HESABATIN AZƏRBAYCAN HİSSƏSİ

Hesabat müəllifləri yazır ki, aparılan islahatlar iqtisadiyyatın nizamlanmasında səmərəliliyin və iqtisadi şaxələnmənin artmasına, makroiqtisadi və sahibkarlıq mühitindəki müsbət dəyişikliklərə səbəb olub. Yeni vergi islahatları ölkənin beynəlxalq ticarətə və xarici investisiyalara daha açıq olmasına və ölkənin normal bazar münasibətlərinə daha da yaxınlaşmasına kömək edib.

Amma hələ görüləsi çox iş var. İqtisadi azadlıqların möhkəmlənməsi üçün daha dərin struktur və sistem islahatlarına ehtiyac var. Mülkiyyət hüquqları və korrupsiyadan azadlıq sahəsində durum hələ də ağırdır. Hökumətin müdaxilələri və nəzarəti monetar sabitlik və xarici investisiyalara təhlükədir. Qanunvericilik islahatları yavaşılayıb və bu da əvvəlki əldə olunan bir sıra nailiyyətlərin itirilməsinə səbəb olub.

### SİYASİ MÜHİT

Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası 2010-cu ilin noyabrındakı parlament seçkilərində qalib gəlsə də, seçkinin ədalətliliyi və legitimliyinə şübhələr var. 2009-cu ildə Konstitusiyaya edilən dəyişikliklərlə prezidentlik müddətlərinə məhdudiyyət götürülüb və İlham Əliyevə 2013-cü ildə yenidən namizəd olmağa imkan verir.

Media azadlığı məhdudlaşdırılır, o cümlədən ölkədə xarici radioların yayımı dayandırılıb. 2010-cu ildə Azərbaycan Dünya Ticarət Təşkilatına üzvlük üçün danışıqları bərpa edib. Neftlə zəngin olan Azərbaycanın Dağlıq Qarabağ mübahisəsi üzündən Ermənistanla müharibəsi minlərlə adamın həlak olmasına və ölkə ərazisinin 1/5-nin işğalına səbəb olub. Rusiyanın dəstəyini qazanmaq ümidi ilə Bakı bu ölkəyə qaz satışını illik 2 milyard kubmetrə qədər artırıb. 2010-cu ildə iqtisadi artım zəifləyib, ancaq neft-qaz hasilatının artması və özəl investisiyaların çoxalması investorların etimadını artırıb.

*- Ədliyyə sistemi qeyri-şəffaflıqdan və icra hakimiyyəti orqanlarının müdaxiləsindən əziyyət çəkir. Ədliyyə və polis sistemi rüşvətxorluğa meyillidir, iri biznes sahibləri hökumətlə əlaqələri vasitəsilə bütün əsas sahələr üzrə inhisarlar yaradır. Ölkədəki vergi qurumlarının fəaliyyəti onların şəffaflığına və hər kəsə eyni münasibət göstərilməsinə şübhə yaradır.*

- Yeni biznes qurmaq prosesi sadələşdirilib, ancaq lisenziyaların alınmasında bürokratiya və süründürməçilik qalır. Bütün bu işlərə dünya üzrə ortalamadan 2 dəfə çox - təxminən 15 prosedura və 200 gündən çox vaxt gedir.

*- Ticarət rüsumları ortalama 3.9 faizdir, ancaq rüsumdan kənar gömrük müdaxiləri və ixracın nəzarətə saxlanması xərclərin artmasına səbəb olur. Bir çox sahələrdə xarici investisiyalara icazə var. Amma şəffaflığın olmaması və bürokratiya investisiyaların sürətli artımını əngəlləyir.*

***İlkin Məmmədov***

# 50 min manatlıq tibbi əməliyyatın aqibəti



**ŞƏHİD AİLƏSİNDƏ 30 MİN MANATIN NARAHATÇILIĞI**

*«20 min manat verilib, 30 min manat xəstəxanaya borclu qalmışıq. Baş həkim də deyir ya pulu ver, ya da məhkəməyə verəcəyəm. Qalmışam dərdimi kimə deyim. Hara yazıramsa, kömək edən yoxdur. Mehriban Əliyevanın qəbuluna yazıldım, getdim, qəbul elədilər, dedilər nə edə bilərik sənin üçün?»*

Kürdəmir sakini Gülnar Zamanova oğluna qaraciyər köçürülməsi əməliyyatının yararsız aparılmasından şikayətlənir və deyir ki, bu azmış kimi, əməliyyat üçün 50 min manatı tam ödəyə bilmədiyinə görə xəstəxana tərəfindən məhkəməyə verilmək təhlükəsi ilə üz-üzə qalıb.

**BEŞ OĞULDAN DÖRDÜ**

Gülnar Zamanovanın 5 oğlundan biri Qarabağ müharibəsində şəhid olub, bir oğlu isə hərbi xidmətdə xəstəlikdən ölüb. İki oğlu da indi Mərkəzi Neftçilər Xəstəxanasında həyatla mübarizə aparır. Deyir, ortancıl oğlu Fuad Zamanov qaraciyərin serrozu xəstəliyindən əziyyət çəkirmiş. Ötən il dekabrın 24-də Mərkəzi Neftçilər Xəstəxanasında (yanvarın 1-dən bu xəstəxana Səhiyyə Nazirliyinin balansına keçib, lakin hələ də üzərindən Mərkəzi Neftçilər Xəstəxanasının lövhəsi çıxarılmayıb) üzərində qaraciyərin canlı donordan transplantasiyası əməliyyatı aparılıb. Donor da öz qardaşı Elman Zamanov olub.

Ancaq əməliyyat uğursuz alındığından 3 gün ərzində Fuad başqa yaxın qohumunun donorluğu ilə təkrar əməliyyat olunub. Gülnar Zamanova deyir ki, indi donorluq etmiş oğlunun da vəziyyəti pisləşib və onu təkrar əməliyyat ediblər. İndi Gülnar Zamanovanı əməliyyatın yararsızlığından çox, xəstəxanaya yaranan borcu narahat edir. Deməsinə görə, əməliyyata görə ondan ümumilikdə 50 min manat istəyiblər. Bunun 20 min manatını oğlu Fuadın işlədiyi şirkət ödəyib. Qalan 30 min manatın ödənilməsi üçün ana müxtəlif dövlət orqanlarına müraciət etsə də, müsbət cavab almayıb. Xəstəxana rəhbərliyi isə Zamanovları xəbərdar edib ki, pul ödənilməsə, məhkəməyə müraciət edəcək.

**KLİNİK XƏSTƏXANAYA GÖSTƏRİŞ VERİLSƏ DƏ...**

Ananın Heydər Əliyev Fonduna yazdığı məktubların nəticəsi bu olub ki, Fond xəstəyə köməklik göstərilməsini Səhiyyə Nazirliyinin Bakı Şəhər Baş Səhiyyə İdarəsinə tapşırıb. Həmin İdarədən deyirlər ki, vətəndaşlara maddi yardım üçün büdcədə vəsait nəzərdə tutulmadığına görə köməklik göstərə bilmirlər. İdarə yalnız onu edə bilib ki, 3 saylı şəhər klinik xəstəxanasına xəstənin müayinə və müalicəsinə köməklik göstərilməsini tapşırıb. Gülnar Zamanova deyir, həmin xəstəxana transplantasiya əməliyyatları həyata keçirmədiyinə görə hər hansı köməklik göstərə bilməyib.

**«BU ƏMƏLİYYAT NEFTÇİLƏR ÜÇÜN DƏ ÖDƏNİŞLİDİR»**

Prezident Administrasiyasına yazılan məktublar isə Dövlət Neft Şirkətinə göndərilib ki, şəhid ailəsinə yardım göstərilsin. Şirkətin sosial məsələlər üzrə şöbəsindən deyirlər ki, orqan transplantasiyaları kifayət qədər bahalı və mürəkkəb əməliyyatlar olduğu üçün belə əməliyyatlar Mərkəzi Neftçilər Xəstəxanasında təkcə qeyri-neft işçiləri üçün deyil, Dövlət Neft Şirkətinin öz işçiləri üçün də ödənişli əsaslarla həyata keçirilir. Odur ki, Fuad Zamanovun üzərində aparılmış transplantasiya əməliyyatı üçün Gülnar Zamanovanın



Gülnar Zamanova

borclu qaldığı məbləğin Dövlət Neft Şirkəti tərəfindən ödənilməsi imkan xaricindədir. Gülnar Zamanova deyir «neft ölkəsində yaşayıb Dövlət Neft Şirkətindən belə cavab almağına qəzəbli gülməyim tutur».

**PULU ŞİRKƏT ÖDƏYƏCƏK**

Mərkəzi Neftçilər Xəstəxanası ilə xəstə arasında bağlanmış müqavilədə əməliyyatın və digər xərclərin məbləği göstərilməyib. Gülnar Zamanova deyir ki, donorlardan biri xəstənin doğma qardaşı, digəri isə doğma bibisi oğlu olub ki, onlar donorluğu könüllü ediblər.

Xəstəxananın baş həkimi Həbib Yüzbaşov deyir ki, onlar əməliyyatın xərcini xəstədən yox, xəstənin işlədiyi və xəstəxana xərclərini üzərinə götürmüş şirkətdən tələb edəcəklər. Həmin şirkət xəstəxana qarşısında öhdəlik götürüb, ancaq xərclərin müəyyən hissəsini ödəsə də, xeyli hissəsini ödəməyib: «Biz onlara güzəştlər etmişik, onlar özləri bunu bilirlər. Onların yerinə başqa bir şirkət zəmanət verib ki, biz o pulu ödəyəcəyik».

Əməliyyatın uğursuzluğuna gəlincə, baş həkim deyir ki: «Özləri də bilirlər ki, xəstəxana həkimləri uşaqlarını ölümcül vəziyyətdən çıxarıb».

Bakıda qaraciyərin köçürülməsinə 2008-ci ildə başlanıb.

***Esmira Cavadova***

**“Qaynar Xətt”** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru



# Əli Kərimli: «Azərbaycanda Liviya variantı lazım deyil»

**AzadlıqRadiosunun «İşdən sonra» proqramına qonaq olan AXCP sədri Əli Kərimli İctimai Palatanın perspektivlərindən danışıb. Koordinasiya Şurasına seçkilərə qiymət verən partiya sədri deyib ki, seçkilər tam demokratik əsasda keçirilib: «Bu seçki nəticəsində İctimai Palatanın Koordinasiya Şurası daha legitim oldu, üzvlərin etimadını qazandı. Sıralarımız bir az da artdı. Bu, İctimai Palatanın 2012-ci ildəki fəaliyyətinə müsbət təsir edəcək».**

**«AZƏRBAYCANA LİVİYA VARİANTI LAZIM DEYİL»**

AXCP sədri deyib ki, dünyada demokratiyaya keçid eyni ssenari ilə baş vermir. İctimai Palata olaraq isə onlar demokratiyaya yumşaq keçidi qarşılarına məqsəd qoyublar: «Azərbaycana Liviya variantı lazım deyil və biz özümüz buna imkan verməməliyik. Azərbaycanın demokratiya təcrübəsi var... Rusiya hazırda daha yumşaq bir keçidə söykənib. Bundan əvvəl Ukraynada və s. ölkələrdə nisbətən daha yumşaq, qansız-qadasız demokratiyaya keçidlər baş verib. Biz onsuz da demokratiyaya keçid işində yubanmışıq. İlklərin sırasında ola bilmədik... İndi biz milli qürurumuzu təmin etməliyik. Gec olsa da, qansız-qadasız, həqiqətən də böyük qarşıdurmalarsız dəyişikliyə nail olmalıyıq...».

**«İSA BƏYƏ SƏS VERMƏYƏ ÇAĞIRDIM»**

Koordinasiya Şurasına keçirilən seçkilərdə narazılıqlar barədə bəzi yazılara münasibət bildirən Əli Kərimli deyib: «Xalq Cəbhəsi Partiyası üzvlərinə seçkidən öncə Koordinasiya Şurasının tərkibinə, xüsusilə hamılıqla İsa bəyə səs verməyə çağırdım».

Əli Kərimli partiya üzvlərinin onun bu



Əli Kərimli

çağırışına qoşulmalarından məmnundur: «Mən bu məsələləri böyütməyin tərəfdarı deyiləm. 17 nəfərdən biri olmaq Xalq Cəbhəsi və Müsavat partiyalarının sədrlərinin haqqıdır. Buna şübhə olmamalıdır. Əminəm ki, mənim müraciətim kimi İsa bəyin də belə bir müraciəti olub. Kimsə ona axıracan əməl etməyibsə, bu, Müsavatla bizim münasibətlərimizə qətiyyən xələl gətirə bilməz».

**Verilişi tam olaraq AzadliqRadiosu.az-dan dinləyin.**

***İlqar Rəsul, Kamran Mahmudov***

# Səməd Seyidov: «Bəli, korrupsiya var...»



Səməd Seyidov

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AzadlıqRadiosuna müsahibə verib. Onunla söhbətə parlamentdə Amnistiya Aktının hazırlanıb-hazırlanmaması haqda sualla başladıq.**

- Azərbaycanın dövlət strukturları, o cümlədən parlament insan haqları ilə bağlı təşəbbüsləri gündəmə gətirir. İndi nə vaxt olacaq, necə olacaq, konkret məndə məlumat yoxdur. Mən yalan danışa bilmərəm. Amma bilirəm ki, bu istiqamətdə xeyli işlər görülüb və ən əsası görüləcək. Həm prezidentin əfv fərmanı, həm bir qədər əvvəl hörmətli Mehriban xanımın təşəbbüsü ilə parlamentdə imzalanmış amnistiya aktı buna misaldır.

**- Səməd müəllim, biz deputatlarla danışanda hamısı xatırladır ki, Amnistiya Aktı təşəbbüsü ilə həmişə Mehriban xanım çıxış edib. Gözlənir ki, yenə o, çıxış edəcək. Başqa deputatların belə təşəbbüslə çıxış etmək haqqı yoxdurmu?**

- Azərbaycan parlamentində hər bir deputatın qanun layihəsini gündəmə gətirmək və müzakirə etmək ixtiyarı var. Sadəcə, bu istiqamətdə - humanist məsələlərlə məşğul olan, Azərbaycan xalqı qarşısında ən aktiv şəkildə fəaliyyətini təşkil etmiş hörmətli Mehriban xanımın işi göz qabağındadır. Bu, təqdirəlayiq haldır.

**- Hüquq müdafiəçiləri «Eurovision» mahnı yarışması ərəfəsində qızıl amnistiya və ya geniş əfv fərmanı olacağını deyirlər. Məlumatlı bir insan kimi, sizcə, bunun hansı daha realdır?**

- Bu humanist aktlar Azərbaycan siyasi rəhbərliyinin apardığı siyasətin tərkib hissəsidir. Hansısa tədbirlə belə aktları birləşdirmək düzgün deyil.

**- İlham Əliyev yeni il təbrikində dedi ki, korrupsiya ilə amansız mübarizə aparılır. Amma bu günlərdə internet saytlarda bir video görüntü – yol polislərinin günün günorta çağı rüşvət aldığını əks etdirən video görüntü yayımlandı. Bu təzadı necə qiymətləndirirsiz?**

- (Gülür) Bu görüntülərin nəzərdən keçirilməsi, mən bilən, xüsusi bir təşkilat tərəfindən aparılır. Günahkarların cəzalandırılması vacib məsələdir və bu istiqamətdə iş gedir.

**- Amma cəmiyyət adekvat reaksiya gözləyir. Həmin polislərin cəzalandırılmasını...**

- Bu yəqin ki, olacaq, işdən çıxarılacaq. Hüquq-mühafizə orqanlarından qanunsuz işlərinə görə bir neçə nəfər yox, onlarla insan kənarlaşdırılıb, tutulub. Bizdə korrupsiya komissiyaları da fəaliyyət göstərir. Ona görə deyirəm, araşdırmaq istəyən statistikanı da əldə edə bilər, nə qədər tutulub, özü də sıravilər yox, vəzifəli şəxslər! «Guya Azərbaycanda korrupsiya ilə mübarizə aparılır» demək düzgün deyil. Bəli, korrupsiya var və buna qarşı mübarizə aparılır.

***Şahnaz Bəylərqızı***

# "Теневая" война и ее оттенки



Активист американского общественного движения

**Аналитическую статью на эту тему газета The Times начинает со слов израильского начальника Генштаба армии обороны Израиля Бени Генца о том, что этот год будет для Ирана переломным. Газета предполагает, что говоря это, Генц имел в виду череду последних новостей, связанных с Ираном: гибель иранских физиков, появление разведывательного беспилотного самолета США сбитого Ираном, учения в Персидском заливе и связанные с этим угрозы Тегерана перекрыть Ормузский пролив, через который перевозится пятая часть мировой нефти, а также заявления США и Евросоюза о намерении отказаться от покупки нефти у Тегерана:**

У иранских лидеров теперь нет сомнений, что речь идет о "теневой" войне с их врагами на Западе. И для разведки такая война предпочтительней реальной. Она дает Западу основания полагать, что ему удается нарушить спокойное существование режима, при этом не вступая в прямой конфликт. Конечно, вовсе не обязательно, что иранцы именно так оценивают происходящее. Несмотря на поездку лидера Махмуда Ахмадинежада по странам Латинской Америки, очевидно, что он ощущает изолированность. Закрытие посольства Великобритании в Тегеране и понижение статуса дипломатических представительств другими странами Евросоюза свидетельствуют о еще более ограниченных возможностях Ирана использовать дипломатические связи.

В конце статьи "Таймс" сравнивает противостояние западных стран и Ирана с расстановкой сил в мире во время Холодной войны: Во время Холодной войны удавалось выйти из кризиса благодаря довольно регулярным контактам между супердержавами и тому, что советская, американская и британская разведки - КГБ, ЦРУ и MI6 – соблюдали правила. Таких правил с Ираном не существует. И это значит, что "теневая" война вполне возможно превратиться в реальную.

***Александра Вагнер***
***(Радио Свобода)***

# Шотландия думает о независимости

**Правительство Шотландии, возглавляемое лидером Шотландской национальной партии Алексом Салмондом, заявило о намерении провести референдум о независимости Шотландии осенью 2014 года. Британский премьер-министр Дэвид Кэмерон настаивает на проведении референдума в ближайшие полтора года, объясняя это экономическими причинами.**

В начале января 2012 года с резкой критикой сроков проведения референдума в Шотландии выступил премьер-министр Великобритании Дэвид Кэмерон, предложивший провести его в ближайшие полтора года. По его мнению, неопределенность с будущим Шотландии и долгое ожидание результатов референдума крайне негативно сказывается на экономической ситуации в стране: бизнес не может планировать свою деятельность, не зная, останется ли Великобритания единой или же Шотландия обретет независимость.

Алекс Салмонд обвинил Кэмерона в давлении на него и его партию и в пренебрежении волей шотландских избирателей. Однако аналитики отмечают, что за спором о дате проведения референдума скрывается серьезный конфликт интересов. Последний опрос общественного мнения показывает, что в большинстве своем шотландцы вовсе не стремятся к независимости: 54 процента опрошенных предпочли бы, чтобы Шотландия оставалась в составе Соединенного Королевства. Поэтому, если референдум проводить сейчас или в ближайшее время, как предлагает Кэмерон, он неизбежно провалится. Отсюда и трехлетняя подготовка, которую требуют шотландские националисты: они надеются, что за три года им удастся доказать избирателям преимущества жизни в независимом государстве.

Однако в случае обретения независимости у Шотландии могут возникнуть серьезные проблемы. Став еще одной маленькой страной Европы (ведь в Шотландии проживают чуть более пяти миллионов человек) и стремясь при этом сохранить нынешние бесплатные здравоохранение и высшее образование, а также другие преимущества, существующие в основном за счет английских налогоплательщиков, Шотландии, когда она окажется за пределами Соединенного Королевств, неизбежно придется подумать, кто будет всё это оплачивать. Мы видим, что произошло с Ирландией в результате кризиса в еврозоне, что случилось с Исландией во время банковского кризиса, и понимаем, что этим маленьким странам не удалось бы устоять без протекции со стороны какой-то более мощной силы. Для Шотландии такой силой остается Великобритания. Именно это заставляет многих шотландцев задуматься о последствиях независимости.



Лидер Шотландской национальной партии Алекс Салмонд на выборах 2007 года

***Наталья Голицына***

# Müğənni Samirə: «YAP-dan bizə zəng olundu»



Bir qrup mədəniyyət və incəsənət işçisinə hakim partiyanın üzvlük vəsiqələri təqdim olunub

Yanvarın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) üzvlərinin sayı daha 12 nəfər artıb. Bir qrup mədəniyyət və incəsənət işçisinə hakim partiyanın üzvlük vəsiqələri təqdim olunub. Təqdimetmə mərasimində YAP-ın icra katibi Əli Əhmədov çıxış edib. O, Azərbaycanda yaradıcı insanların yaşaması və işləməsi üçün münbit şəraitdən danışıb. Eyni zamanda deyib ki, partiya üzvlərinin sayı 560 minə yaxınlaşır. Amma yaxın vaxtlarda bu rəqəm 600 minə çatacaq. Bu dəfə YAP-ın vəsiqəsini müğənnilər Ağadadaş Ağayev, Zülfiyyə Xanbabayeva, Cavanşir Məmmədov, Firuzə İbadova, Elza Qasımova (Seyidcahan), Lalə Məmmədova, Yaşar Yusifov, Samirə Allahverdiyeva, aktyor Elməddin Cəfərov, Azərbaycan Dövlət Rəqs Ansamblının solisti Eteri Cəfərova, modelyer Gülnarə İbadova və rəssam Xəzər Nəbiyev alıb.

**«ƏGƏR MƏN ÖZ HÖKUMƏTİMƏ HÖRMƏT EDİRƏMSƏ...»**

Müğənni Samirə Allahverdiya deyir ki, YAP-a üzv olmaq haqda ona bir ay öncədən təklif gəlib. O, bu təklifi məmnuniyyətlə qəbul etdiyini bildirir: «Yeni Azərbaycan Partiyasından bizə zəng olundu. Bizə təklif olundu ki, nəyə görə Samira xanımın siması, şəxsiyyəti bizim partiyamızda təmsil olunmasın?! Mən də razılaşdım. Əgər mən öz hökumətimə hörmət edirəmsə, sevgi ilə, qayğı ilə yanaşıramsa, nəyə görə də bu rəsmi olmasın. Mən hansısa məqsədin dalınca qaçıb, nəyisə güdmürəm».

**«UZUN MÜDDƏT BİTƏRƏF QALMAQ OLMUR»**

Aktyor Elməddin Cəfərov deyir ki, hansı partiyanın üzvü olmaq, hansı futbol klubuna azarkeşlik etməyin fərqi yoxdur. O, bildirir ki, əsas insanlığı qoruyub, Azərbaycanın inkişafı üçün çalışmaqdır: «Bu serial inkişafına dövlətin qayğısından sonra qarşılıq olaraq YAP-a üzv oldum. Mənə həmkarım Tərlan Nuryaşar təklif etdi, başa saldı ki, getmək olar. Dedi ki, siyasi heç nə etmirsən, sadəcə olaraq, üzv olursan. Sadəcə olaraq, oranın üzvlərindən təklif gəldiyinə görə YAP-ı seçdim. Zatən uzun müddət bitərəf qal-



Aktyor Elməddin Cəfərov

maq olmur. Amma bu o demək deyil ki, başqa partiyaların üzvlərinə qarşı soyuğam. Sadəcə olaraq, belə oldu. Bəlkə də digər partiyaların üzvlərinin mənə qarşı marağı, sevgisi azalsın. Amma mən marağı, sevgini bununla ölçmürəm».

Xalq artisti Zülfiyyə Xanbabayeva üzvlük vəsiqəsini alarkən bildirib ki, o hər zaman özünü YAP sıralarında hiss edib. O bu mühüm addımın onun məsuliyyətini birə on qat artırdığını qeyd edib. Xalq artisti Ağadadaş Ağayev isə bu partiyanın sıralarında olmaqdan qürur duyduğunu, partiyanın məqsəd və məramını dəstəklədiyini vurğulayıb.

**«ŞİMALİ KOREYADA OLDUĞU KİMİ...»**

Kulturoloq Rəhman Bədəlov deyir ki, incəsənət adamlarının kütləvi YAP-a üzvlüyü normal hal olmasa da, hər iki tərəfin məntiqi aydındı: «Avtoritar rejimdir, demokratiya yoxdur. Kim hakim partiyadadırsa, bu, ona müəyyən hallarda kömək ola bilər. Onlar görürlər ki, orada himayələri var, konsertlərdə olacaqlar və bir sözlə, güzəranları daha da yaxşı olacaq. Yəni Şimali Koreyada, bahar inqilabları olan Ərəb ölkələrində olduğu kimi. Bu, normal hal deyil, amma məntiq aydındı».

***Nüşabə Fətullayeva***



ARDNF-in yeni ofis binasının təməlqoyma mərasimi, 29 dekabr 2009

# Dövlət Neft Fondu 85 mln. avroya özünə bina tikir

Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) yeni ofis binasının tikintisi üçün baş podratçı şirkət müəyyənləşib. Baş podratçı şirkətin müəyyənləşdirilməsi məqsədi ilə keçirilən müsabiqənin nəticəsinə əsasən, binanı 84.916 mln. avroya Belçikanın «N.V.Besix S.A.» şirkəti tikəcək. Artıq tərəflər arasında müvafiq satınalma müqaviləsi imzalanıb. «N.V. Besix S.A.» şirkəti xarici ölkələrdə hündürmərtəbəli ofis binalarının tikintisində böyük təcrübəyə malikdir. O, 1909-cu ildə Belçikada yaradılmış «BESIX Group»un törəmə şirkətidir. «BESIX Group» Avropa, Şimali və Mərkəzi Afrika və Asiya ölkələrində bir çox irimiqyaslı layihələr reallaşdırıb və hazırda 15 ölkədə 17 min işçi heyəti var. ARDNF-in yeni ofis binası Bakıda, Heydər Əliyev prospekti boyunca yaradılan yeni inzibati mərkəzdə tikiləcək.




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41
Elektron ünvan:
efir@azadliqradiosu.az

# Polislərin rüşvət aldığını göstərən videoya Ramil Usubov da baxıb






**Bu video Bakıda - Təhsil Nazirliyinin düz yanında 2011-ci il dekabrın 31-də çəkilib. Bir neçə yol polisi əməkdaşı qarşılarına çıxan maşınları saxlayıb "reyd" keçirir və sürücülərdən pul alırlar. Bu mənzərə videoda çox aydın şəkildə görünür. Kimliyi bilinməyən vətəndaşın çəkdiyi bu videonu AzadliqRadiosu.az saytı yayıb, daha sonra inernetdə və mətbuatda geniş müzakirəyə səbəb olub.**

"Qafqazinfo" saytının əldə etdiyi məlumata görə, sözügedən vitdeogörüntülər daxili işlər naziri Ramil Usubova təqdim olunub. Nazir baş verən hadisənin dərhal araşdırılmasını və polislərin məsuliyyətə cəlb olunması haqda tapşırıq verib.

«Videoda rüşvət alan polislərin kimliyi müəyyənləşib». Bu barədə AzadlıqRadiosuna Daxili İşlər Nazirliyi mətbuat xidmətinin rəisi Sadiq Gözəlov məlumat verib. S.Gözəlov hər üç polisin serjant olduğunu bildirib: «Hər üç polis nazirin əmri ilə daxili işlər orqanlarından xaric edilib. Toplanmış materiallar isə hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilib».

**Sözügedən videoya AzadliqRadiosu.az saytında baxa bilərsiniz.**

# 3 il əvvəl açılan bahalı beton yol təmirə dayanıb



Rövşən Ağayev

**«Ölkədə normal hökumət olsa, bunlar baş verməz». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında iqtisadçı-ekspert Rövşən Ağayev 3 il əvvəl istifadəyə verilmiş Zığ-Hava limanı yolunun təmirə dayanmasına münasibət bildirərkən deyib. O, qeyd edib ki, inşası bitdikdən sonra həmin yolu podratçı şirkət dövlət komissiyasına təhvil verib: «Dövlət komissiyasının statusu nədir? Orda kimlər var? Dövlət komissiyası yolları istismara qəbul edəndən sonra problemlər ortaya çıxırsa, həmin qurumun məsuliyyəti nədən ibarətdir? Bunlar araşdırılmalıdır».**

R.Ağayev deyir ki, bu, ilk hal deyil. İki il bundan əvvəl istifadəyə verilmiş Bakı-Şamaxı və Bakı-Quba yolunun bəzi yerlərində də artıq çökmələr var:«Burda məsuliyyət daşıyan bir instansiya varsa, bu, Azərbaycan hökumətidir, onun başında duran şəxslərdir. Ölkədə hüquq işləsəydi, bunların cavabı olardı. Podratçı şirkətlərə ayrılan pulun hamısı onlara çatırmı? Ölkədə o qədər hesabatsızlıq sistemi, qeyri-şəffaf mühit var ki, bu suallara cavab vermək çətindir».

**TENDERLƏR ŞƏFFAF OLSAYDI...**

İqtisadçı-ekspert Natiq Cəfərli isə problemi dövlət tenderlərinin şəffaf olmaması ilə izah edir: «Şəffaf şəkildə tenderlər elan olunsaydı, xarici və daxili şirkətlər bu tenderlərdə iştirak etsəydi, yeyintilərin də qarşısı alınardı, belə problemlər də ortaya çıxmazdı. Həm də bir məsuliyyət müqaviləsi olardı tərəflər arasında ki, hər hansı bir problem ortaya çıxarsa, həmin məsuliyyət kimin üzərinə düşür. Hazırda podratçı şirkət məsuliyyəti öz üzərindən atır. Dövlət komissiyasının statusu və tərkibi açıqlanmır. Məsuliyyətin kimin üzərində olması qaranlıq qalır».

**İTİRİLMİŞ PULLAR...**

N.Cəfərli deyir ki, Azərbaycan hökuməti «dövlətin puludursa, yemək olar» təfəkkürü ilə çalışır. «50 milyard manata yaxın infrastruktura vəsait qoyulub. Bu, artıq itirilmiş pullardır. Gələcəyə də baxmaq lazımdır. Azərbaycan hökuməti işlərə müvəqqəti bir idarəetmə üsulu ilə yanaşır. Azərbaycanda büdcənin formalaşmasında da, xarici ticarət dövriyyəsində də ən böyük amil neft amilidir. Büdcənin formalaşmasında neftin rolu 80 faizə, xarici ticarət dövriyyəsində isə 97 faizə yaxınlaşır. Hamı, hətta prezidentin özü də bu fikri qəbul edir ki, neft daimi deyil. Nə vaxtsa o, azalacaq. Bu keyfiyyətsiz işlərin ağrısını, acısını isə bizdən sonrakı nəsillər çəkəcək. Azərbaycan hökuməti heç olmasa, bu barədə düşünsün...».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləmək olar.**

***İlqar Rəsul, Kamran Mahmudov***

# Критиковать ислам опаснее, чем власть?



**Катализатором подобных настроений послужило имевшее место в конце ноября убийство писателя и публициста Рафика Таги, открыто выступавшего с критикой в адрес ислама и Ирана. 61-летний публицист, отбывший тюремное наказание за статью, критикующую пророка Мухаммеда, скончался 23 ноября от множественных ножевых ранений, нанесенных ему неизвестным в центре Баку. В интервью "Радио Свободная Европа/Радио Свобода", данном незадолго до смерти, Таги сказал, что нападение на него является делом рук иранских агентов или мусульманских фундаменталистов, разгневанных двумя его последними статьями.**

Смерть писателя заострила внимание на углубляющемся расколе в обществе по вопросу о том, какую роль должны играть исламские религиозные верования в преимущественно светской стране. В социальных сетях – главной площадке для выражения общественного мнения в Азербайджане – можно найти самый широкий спектр мнений, от негодования из-за смерти Таги, погибшего за свои убеждения, до выражения ликования, что его постигла "справедливая кара за оскорбление пророка [Мухаммеда]".

Вместе с тем гибель Таги, похоже, самым негативным образом сказалась на апологетах религиозных свобод и свободы слова. "Этот инцидент еще больше усилил самоцензуру в дебатах по данному вопросу, – говорит директор Института свободы и безопасности репортеров Эмин Гусейнов. – Некоторые люди теперь будут чувствовать себя неуютно, обсуждая вопросы ислама…

Как признается один из самых откровенных литераторов Азербайджана, Али Акбар, перу которого принадлежит скандальный роман об азербайджано-армянской гомосексуальной паре, гибель Таги заставила его убавить критику в адрес приверженцев исламистских взглядов. Выступать против ислама сегодня стало опаснее, чем против правительства, подчеркивает он.

"Я высказываюсь на тему о переменах, которые я бы хотел видеть в Азербайджане, но не могу открыто рассуждать о том, что ислам является препятствием на пути позитивных преобразований в Азербайджане, – говорит писатель, причисляющий себя к атеистам."

Власти страны, разрушающие незаконно, по их утверждению, построенные мечети и в неофициальном порядке запретившие ношение хиджаба в государственных средних и высших учебных заведениях, все чаще попадают под огонь критики за третирование растущей армии мусульманских верующих, в котором усматривается дальнейшее наступление на инакомыслие.

Как отмечают умеренные представители по обе стороны баррикад по следам гибели Таги, конфронтация прошлого способствует созданию атмосферы, не позволяющей вести сколько-нибудь конструктивный диалог на тему религии.

"Неясно, кто убил Рафика Таги и почему, но даже если это и связано с чьими-то религиозными чувствами, я возражаю против того, чтобы винить за один этот инцидент ислам", – утверждает профессор теологии Бакинского государственного университета Алтай Гоюшев.

Правозащитник, председатель Центра защиты свободы совести и вероисповедания имам Ильгар Ибрагимоглу разделяет мнение, что дебаты о роли ислама должны продолжаться, отмечая однако, что "после недавних инцидентов мы наблюдаем больше оскорблений , нежели дискуссий".

"Нужно, чтобы были дебаты по любому вопросу, в том числе и по вопросу религии. Это – основополагающий принцип свободы слова, – отмечает он. – Критики должны иметь возможность свободно высказывать свое мнение в этих дискуссиях, и все должны терпимо относиться к критике. Но дискуссии должны проходить без оскорблений. Оскорбления подлежат всеобщему осуждению".

Бакинское Управление мусульман Кавказа, являющееся административным органом, ведающим вопросами ислама в Азербайджане, не выступало с публичными комментариями по данному вопросу. Правительство и правящая партия "Ени Азербайджан" также хранят молчание.

Между тем гибель Рафика Таги выявила разногласия, наметившиеся в рядах азербайджанской оппозиции. Один из таких конфликтов можно было наблюдать 3 декабря на заседании Общественной палаты – широкого оппозиционного альянса. Ряд мусульманских верующих выступили против призыва почтить память Рафика Таги минутой молчания, а сторонники светской государственности резко отреагировали на предложение сделать официальным праздником день Ашура – день поминовения внука пророка Мухаммеда, почитаемого шиитами имама аль-Хусейна ибн Али.

Приведут ли проявившиеся разногласия к расколу альянса, остается вопросом. Ильгар Ибрагимоглу предостерегает, что в итоге Азербайджану самому нужно урегулировать возникший в связи с гибелью Рафика Таги конфликт и дать шанс диалогу. "Исход зависит только от нас", – уверен он.

***Хадиджа Исмайлова***

# Kremlin internet uğursuzluğu



**Bir vaxtlar internetə kinayə ilə yanaşan Rusiyanın baş naziri Vladimir Putin prezident seçkilərinin yaxınlaşdığı bir vaxtda özü də internetdən istifadə etmək qərarına gəlib. Ancaq deyəsən bu qərar Rusiyanın baş naziri üçün elə də uğurlu olmayıb. Yeni yaradılmış saytda Putinin seçki platforması yerləşdirilib. Saytda baş nazir Putinin xizək sürəndə, hokkey oynayanda, balıq tutanda, ovda, at sürəndə çəkilmiş şəkilləri də yerləşdirib. Sayt göz oxşasa da, gələn şərhlər heç də ürəkaçan olmayıb.**

Andrei Antoninko adlı internet istifadəçisi belə bir şərh yazıb: «Xahiş edirəm, siyasətdən gedin. Biz başa düşürük ki, hakimiyyət narkotik kimi bir şeydir. Ancaq sizin getməyiniz ləyaqətli addım olardı».

Arkady Vishnev adlı başqa biri isə yazıb ki, «Putinin namizədliyini geri götürməsi ölkə üçün edəcəyi ən faydalı iş olar». Məşhur blogger Svetlana Sorokina isə yazdığı şərhdə Putini baş nazir postundan istefa verməyə və ölkədəki vəziyyəti inqilaba gətirib çıxarmamaq üçün seçki yarışından çəkilməyə çağırıb.

Başqa bir istifadəçi Mikhail Meshkov isə bunları yazıb: «Sizdən bezmişəm. 12 ildir sizə dözürəm. Hər şey eynidir. Əgər yenə siz seçilsəniz, mənim dostlarımın çoxu ölkəni tərk edəcək. Siz bunu istəyirsiniz? Mən istəmirəm. Mən normal ölkədə yaşamaq istəyirəm. Ona görə də nə qədər gec deyil, rədd olub gedin».

Mənfi şərhlər qısa zamanda saytdan silinib. Bu şərhlər Putini tərifləyən, senzuranın tətbiq olunması, qeyri-hökumət təşkilatlarının xaricdən maliyyələşdirilməsinin dayandırılmasına çağıran şərhlərlə əvəz olunub. Ancaq bunların silinməsinə baxmayaraq, bloggerlər mənfi şərhlərin əks olunduğu vaxtda saytın görüntüsünü saxlaya biliblər.

# Xristianların sayı azalır



Xristianlıq dünya üzrə dominant din sayılsa da, Avropada bu din davamçılarının sayı azalır. Dini və ictimai həyat məsələləri üzrə "Pew Research" Tədqiqat Mərkəzinin hesabatında belə deyilir. Hesabatda qeyd olunur ki, hazırda dünyadakı xristianların sayı 2,18 milyard təşkil edir. Bu, dünya əhalisinin təxminən üçdə biri deməkdir. Bununla yanaşı, mərkəz ekspertləri bildirir ki, "hazırda heç bir region xristianlığın mərkəzi sayıla bilməz". Çünki bu din davamçıları coğrafi baxımdan 200 dövlətdə yaşayırlar. Mərkəz ekspertləri hesab edir ki, XX əsrin əvvəllərinə nisbətən indi Avropada xristianların sayı azalıb. Əgər həmin dövrdə Avropa əhalisinin 95 faizi xristian idisə, indi bu göstərici 76 faiz təşkil edir. Maraqlısı odur ki, bu din tədricən Afrikanın və Asiyanın Sakit okean regionlarından populyarlıq qazanmağa başlayıb.

Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.






Romney həyat yoldaşı Ann ilə

# Obamanın rəqibi mormon təriqətindən ola bilər

**Amerikada müxalifətdəki Respublikaçılar Partiyası builki prezident seçkilərində özünə namizəd müəyyən edir. İndi Amerika boyu partiya üzvləri arasında seçkilər başlanıb və ilk iki seçkini Mitt Romney qazanıb. Əgər bu uğuruna davam etsə, noyabrdakı prezident seçkilərində hazırkı dövlət başçısı Barak Obamanın rəqibi məhz o ola bilər. Amma Ayova və Nyu-Hempşirdəki partiya seçimləri qazanması ilə Romney həm də Amerikada bir məsələni diqqət mərkəzinə gətirmiş oldu. Romney mormon təriqətindəndir. Hətta Amerikanın özündə də bir çox insanlar bu təriqət haqda ətraflı məlumata malik deyillər.**

Təxminən 200 il əvvəl yaranıb. Mormonlar təriqətin 19-cu əsrdəki lideri Joseph Smith-in təliminə tapınıblar. Təriqət üzvləri "Mormonların kitabı" adlı əsəri müqəddəs sayırlar. Amerikada 6 milyon mormon var. Onlar ölkə əhalisinin təxminən 2 faizini təşkil edirlər. Mormonların Utah ştatında - Salt Lake City-də yerləşən mərkəzi bildirir ki, dünya boyu təriqətin 14 milyon üzvü var.

Bu təlimlərin hər ikisi Bibliyanı müqəddəs kitab sayır, tək Allaha və onun oğlu İsa Məsihin xilaskar olmasına inanır. Amma mormonların Allahın qüdrəti, əbədiliyin mahiyyəti və bəndənin günahlardan təmizlənməsinə dair baxışları xristianlıqdan fərqlidir. Mühafizəkar xristianlar üçünsə belə fərqli baxışlar kifayətdir ki, mormonlara şübhə ilə baxsınlar.

# Rəsulzadənin məxfi məktublarının toplandığı kitab çıxdı


Məhəmməd Əmin Rəsulzadə

**Moskvanın "Mısl" nəşriyyatında "Ə.Topçubaşı və M.Rəsulzadə. Yazışmalar. 1923-1926-cı illər" adlı kitab çapdan çıxıb. Kitabın tərtibçisi, ön sözün və qeydlərin müəllifi Azərbaycan mühacirət irsinin araşdırıcısı, professor Salavat İshakovdur. Topluda ötən il gürcü alimi Georgi Mamulianın Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə aid Parisdən tapdığı 35 məktub yer alıb.**

Parisdə yaşayan Azərbaycan parlamentinin sabiq sədri Əlimərdan bəy Topçubaşıyla Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin yazışması 1923-26 cı illəri əhatə edir. Məktublar Rəsulzadə və Topçubaşının mühacirətdə müstəqil Azərbaycan uğrunda savaşı davam etdirməsi, Qafqaz Konfederasiyası yaratmaq uğrunda cəhdləri ilə bağlı bəzi məqamlara aydınlıq gətirir. Məktublar bu yaxınlarda Ə.M.Topçubaşının Parisdəki Rusiya, Qafqaz və Mərkəzi Ali Sosial Araşdırmalar Məktəbinin Tədqiqatlar Mərkəzinin şəxsi fondundan tapılıb. Georgi Mamulia həmin mərkəzin araşdırmaçısıdır.

Deyilənə görə, məktublar şəxsi və bəzən də məxfi xarakter daşıyıb. Onların yazılmasından yalnız M.Ə.Rəsulzadə və Ə.M.Topçubaşının keçmiş silahdaşlarının xəbəri olub. Kitabın nəşrə hazırlanmasında xaricdə fəaliyyət göstərən Cümhuriyyət araşdırıcılarının - Moskvada yaşayan Ramiz Abutalıbovun və Türkiyə Ege Universitetinin professoru Yavuz Akpınarın da böyük dəstəyi olduğu deyilir.

***Sevda İsmayıllı***

# Yasamaldakı «Hüseyniyyə» ibadət yeri qapadılıb

**«İndi Yasamalda azan səsi eşidilmir. Azan verilən mikrofonları da açıb aparıblar. Bütün Yasamal camaatı burada namaz qılırdı. Gəldilər, bağladılar, bilmirik nəyə görə». Dindar Tahir Tağıyevlə Yasamal rayonunda «Hüseyniyyə məscidi» deyilən yerdə rastlaşdıq. Tahir Tağıyevin dediyinə görə, guya burada dövlət əleyhinə təxribat hazırlanırmış. Belə bir şübhənin yaranmasına isə bağlanmazdan bir neçə gün öncə burada bir neçə əfqanın namaz qılması səbəb olub: «Deyirlər guya təxribata görə bağlanıb. Amma burada heç bir təxribat olmayıb. 5-6 nəfər əfqan gəlib bura. Onlar da təkcə bura gəlmirlər ki, bütün məscidlərdə olurlar da. Məscid Allahın evidir, bütün müsəlmanların üzünə açıqdır. Onda bizi də Kərbəladan qovsunlar da, qoymasınlar orada namaz qılmağa».**



Məsələyə Milli Təhlükəsizlik Nazirliyinin münasibətini öyrənməyə cəhd etdik. Nazirliyin sözçüsü Arif Babayev yalnız bunu dedi ki: «Bizim bu məsələyə aidiyyətimiz yoxdur».

Yasamal Rayon İcra Hakimiyyətinin mətbuat katibi Vaqif Məmmədov deyir ki, hər hansı yerin qapadılması haqda məlumatı yoxdur və Yasamal rayonunda «Hüseyniyyə» adlı qeydiyyatdan keçmiş və qanuni fəaliyyət göstərən nə məscid, nə də dini icma tanıyır.

***Ülkər Akifqızı***


Vüsalə Əlibəyli və Hüseynbala Səlimov

# AzadlıqRadiosunun 2 əməkdaşı «Media açarı» alıb

**Yanvarın 10-da «Media açarı-2011» mükafatı təqdim olunub. Qaliblər arasında AzadlıqRadiosunun iki əməkdaşının adı da var. İlin ən yaxşı şərhçisi nominasiyası üzrə Hüseynbala Səlimov və ən yaxşı jurnalist araşdırması nominasiyası üzrə Vüsalə Əlibəyliyə «Media açarı» mükafatı verilib.**

«İlin Media Adamı» nominasiyası üzrə mükafata isə akademik Rafiq Əliyev layiq görülüb.

4-cü nominasiya üzrə mükafat isə sahibini tapa bilməyib. «Yeni Nəsil» Jurnalistlər Birliyindən verilən məlumata görə, «Ən yaxşı reportyor» bölümünə uyğun şəxs seçə bilməyiblər.

«Media açarı» mükafatı 1995-ci ildən etibarən hər il 22 İyul – Milli Mətbuat Günü ərəfəsində təqdim olunur. İlk dəfə olaraq 2011-ci ildə mükafatın təqdimatı iyulda baş tutmayıb. Builki münsiflər heyətində media ekspertləri Arif Əliyev, Elçin Şıxlı, Qulu Məhərrəmli və Zeynal Məmmədli təmsil olunublar.

## AzadliqRadiosu.az saytında maraqlı sorğu

*2013-cü ilin prezident seçkisində İlham Əliyevin əsas rəqibi kim ola bilər?*

1. İsa Qəmbər
2. Əli Kərimli
3. Rəsul Quliyev
4. Mehriban Əliyeva
5. Etibar Məmmədov
6. Eldar Namazov
7. Heç biri, yeni lider meydana çıxacaq

**Nəticələri görmək üçün AzaadliqRadiosu.az saytına daxil olun.**

# Blair: «Hollivudda «Əli və Nino» filminin çəkilməsi Azərbaycanın xeyrinə olacaq»



**«Əli və Nino» əsərinin Hollivudda ekranlaşdırılması Azərbaycan üçün əhəmiyyətli olacaq. Bunu «ANS»ə açıqlamasında əsərin araşdırıcısı, «Azerbaijan International» jurnalının baş redaktoru Betty Blair deyib. Onun fikrincə, Hollivudda «Əli və Nino» filminin rejissoru olacaq Christopher Hempton'un bu əsəri ekranlaşdırmaq istəyi yaxşı ideyadır:**

«Christopher Hempton Oksford Universitetini bitirib. O, xeyli sayda film üçün ssenari yazıb. Həmçinin «Oskar» mükafatçısıdır. Çox ciddi bir yazıçıdır. Həmin filmin ilkin ssenarisini oxudum, çox yaxşı ssenaridir. Hempton çox istedadlı ssenaristdir. Azərbaycanda əsrin əvvəllərində olan inqilab dönəmləri haqqında çox az adamın məlumatı var. İnqilab dövrü dünya tarixinin ən önəmli dövrlərindəndir. Hesab edirəm ki, bu film insanların həmin tarixlə daha yaxından tanış olması üçün dəyərli olacaq. Azərbaycan xalqının azadlıq yanğısı aşılanacaq. Yaşadığımız günlərdə bir çox xalqların müstəqil olmaq istəyini nəzərə alaraq, bu film dünyada baş verən siyasi hadisələr və müasir həyat tərzi baxımından çox dəyərli olacaq».

«Oskar» mükafatı laureatı Christopher Hempton Azərbaycan əsərinin tele-versiyasının ssenarisini hazırlayacaq. Britaniyanın «PeaPie Films» şirkəti filmin çəkilişinə dair müəlliflik hüququ əldə edib və yaxın zamanlarda müvafiq işlərə start veriləcək. Filmin icraçı prodüseri isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

# Türkiyənin ən bahalı filmi gəlir, nə gəlir...



Faruk Aksoy

**Ya mən İstanbulu alacağam, ya İstanbul məni... Fatih Sultan Mehmetin bu sözlərini yəqin ki, artıq fraqmentləri yayılmağa başlayan "Fəth - 1453" filminin açar sözü adlandırmaq olar. Fatih Sultan Mehmetin İstanbulu fəth etməsinə həsr olunmuş filmin rejissoru Faruk Aksoydur. Ssenaristlər Atilla Engin və İrfan Saruhandır. Film Türkiyə kino tarixinin ən böyük büdcəli filmi sayılır. Filmin büdcəsi 17 milyon dollardır.**

Türk mediası Faruk Aksoyun bundan əvvəl çəkdiyi "Recep İvedik" filmindən qazandığı məbləğin hamısını bu filmə yatırdığını yazır. Ancaq bu para da azlıq edib. Rejissor bankdan kredit alıb, evini satıb və qardaşından borc pul istəməyə məcbur olub. Faruk Aksoy 8 aylıq hazırlıqdan sonra 2009-cu ilin sentyabrında filmi çəkməyə başlayıb. Film az qala 3 ilə çəkilib. Filmdə baş rolu—Fateh Sultan Mehmeti—Devrim Evin canlandırıb.

Yeni filmin, ABŞ və İngiltərə başda olmaqla, bir çox ölkələrdə izlənəcəyi bildirilir. Hələ göstərilməsə də, filmi birmənalı qarşılamayanların olacağı şübhəsizdir. Məsələn, filmin təkcə fraqmentlərinin yayılması Yunanıstanda qəzəbə səbəb olub.

Türkiyə mediası "Fetih 1453'ün fragmanı bile Yunanistan'ı ayağa kaldırmaya yetti" - kimi başlıqlar verib. Yunan qəzetləri filmi "türklərin 17 milyonluq fəth propaqandası" adlandırıb.

***Sevda İsmayıllı***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Fəzail Ağamalı: **"Rafiq müəllim, siz hadisələrin fövqündə dayanmalısız"**



ELÇİN: **"Mirzə Fətəlinin Füzuliyə münasibətini yanlış sayıram"**



Həyat yoldaşı: **"ƏLİ KƏRİMƏ TABUT TAPILMIRDI"**



**"Azdrama"da direktor və rejissorlar aktrisaya qarşı**




**"Oxu zalı"nda Seymur Baycanın "Quqark" romanı müzakirə edildi**

# Kral nə qədər xərcləməlidir?


Kral Juan Carlos və Kraliça Sofia

**İspaniyada ilk dəfə kral və onun ailəsinin illik xərcləri açıqlanıb. Juan Carlos'un və ailəsinin xərcləri dövlət tərəfindən ödənir. Kralın hesabat verməsi bəyənilib. Amma ispanların bəzisi güman edir ki, monarxiyanın saxlanması dövlətə hesabatda göstərildiyindən qat-qat baha başa gəlir.**

İspan monarxının aylıq maaşı vergilər çıxandan sonra 14.5 min avrodur. Bundan başqa, ildə ona bəzi xərclər üçün 152 min avro ayrılır. Bu haqda məlumat Kral Evinin saytında yerləşdirilib. İspan şahzadəsi Felipe de Borbon isə 2 dəfə az maaş alır. Kraliçaya, 2 kral qızına və şahzadənin xanımına isə maaş verilmir. Kral özü onlara Kral Evinin büdcəsindən vaxtaşırı vəsait ayırır. Məsələn, maliyyə hesabatına əsasən, onlar ötən il 375 min avro alıblar.

**«KRAL HESABAT VERMƏYƏ BORCLU DEYİL»**

Kommunistləri çıxmaqla İspaniyanın siyasi partiyaları düşünür ki, bu rəqəm çox deyil. Kommunistlərsə monarxiyanı rədd edirlər, kral ailəsinə xərclənən vəsaiti lazımsız sayırlar. Parlamentin spikeri, ölkənin hakim partiyası – Xalq Partiyasının üzvü Alfonso Alonso: «Bu təşəbbüs nəzakətli və tərifəlayiqdir. Bundan sonra vətəndaş biləcək ki, kralın dövlətdən aldığı pul necə xərclənir. Bu il böhrana görə kralın xərcləri 5 faiz azalıb. Bu da xalqın monarxiyaya etimadını artırır».

**KRALA QARA QƏPİK DƏ VERMƏK İSTƏMƏYƏNLƏR VAR**

Əhalinin fikri isə bu məsələdə haçalanıb. Sadə camaat düşünür ki, monarxın maaşı ölkədəki orta əməkhaqqından 10 dəfə, minimum əməkhaqqından isə 23 dəfə artıqdır. İndi küçədə, barda, işdə, evdə ispanlar 65 yaşlı təqaüdçü, Madrid sakini Antonio'nun AzadlıqRadiosuna müsahibəsindən danışır. O deyib: «Kral gəlir bəyannaməsini çoxdan açıqlamalıydı, bütün ispanlar onun nə qədər aldığını bilməliydi. Nə üçün ölkənin vətəndaşları gəlirini göstərməlidir, o, yox? Bundan başqa, mənə elə gəlir ki, ona həddən artıq maaş verirlər. Nəzərə alın ki, o, İspaniya üçün çox az iş görür. İxtiyarımda olsaydı, mən ona qara qəpik də verməzdim».

Madrid sakini Fernando'ya görə, monarxiya bu subsidiyaya layiqdir: «Məncə, biz mühakimə etməli deyilik ki, bu xərclər azdır, ya çox. Kral vaxtilə İspaniyanın diktaturadan demokratiyaya keçməsində böyük rol oynayıb. Biz hamımız ona minnətdarıq».

Hesabatdan bu da aydın olur ki, kral mühafizəyə, saray və malikanələrin təmirinə, 70 sürücünə, yaxtalara qulluğa görə pul ayırmır. Üstəlik, qaz, işıqpulu ödəmir, səyahətlərinə pul xərcləmir. Bütün bunlar da 500 əməkdaşın pulu kimi ayrı-ayrı dövlət qurumları tərəfindən ödənir.

**25 MİLYON AVRO HARADAN ÇIXDI?**

Araşdırmaçı jurnalist Juan Luis Gallaccio'ya görə, bu xərclər ildə 25 milyon avronu keçir, yəni hesabatdakı 8 milyondan 2-3 dəfə çoxdur. Məsələn, 100 mühafizəçinin pulunu Daxili İşlər Nazirliyi ödəyir. Kral saraylarının təmirinə, saxlanmasına büdcədən ildə 3 milyon avrodan çox pul xərclənir.

**KRALIN VARİDATI 2 MİLYARD AVRODUR**

Monarxın şəxsi daşınar-daşınmaz əmlakı, bank hesabları isə ayrıca mövzudur. Və ya ona göndərilən hədiyyələr. Məsələn, bir avtomobilin qiyməti 140 min, yaxtanın dəyəri 16 milyon avrodur. «Forbes» yazır ki, İspaniya monarxının varidatı hələ 2008-ci ildə 2 milyarda yaxınlaşıbmış.

# Kraliçanın başını örtməsi siyasi qalmaqal yaratdı

Niderland kraliçası Beatrixin başıbağlı halda məscidə getməsi ölkədə əməllibaşlı siyasi mübahisələrə səbəb olub. Kraliçanın özü isə bu diskussiyaları "mənasız" adlandırıb. 73 yaşlı holland kraliçası Beatrix Yaxın Şərqə səfəri zamanı iki dəfə - Abu-Dabi məscidində və Oman paytaxtındakı Cümə məscidində olarkən başına şlyapasının üstündən şal bağlayıb. Onu müşayiət edən şahzadə Maksima da başını örtüb. Bu, jurnalistlərin diqqətini cəlb edib. Hollandiya televiziyaları qeyd ediblər ki, qollarına uzun əlcək taxan kraliça "Abu-Dabi sakinlərindən daha çox örtülüb".

Parlamentdə antiİslam mövqeyi ilə seçilən Azadlıq Partiyası kraliçanın bu görkəmini "kədərli mənzərə" kimi qiymətləndirib. Partiyanın rəhbəri, müsəlmanlar tərəfindən birmənalı qarşılanmayan "Fitnə" filminin təşəbbüskarı Geert Vilders isə kraliça barəsində "qadınların əsarətini qanuniləşdirir" sözlərini işlədib. Kraliçanın təmsilçiləri isə bildiriblər ki, Beatrix İslam ənənələrinə hörmətini nümayiş etdirib.


Kraliça başını bağlaması ilə bağlı mübahisələri "mənasız" adlandırıb




# AzadlıqFM

Hər həftənin cümə axşamları **saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun** yeni layihəsi **Facebook** məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda **AzadlıqRadiosunun Facebook Fane Pageində** də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. **AzadlıqFM**-in arxiv səhifəsi də var.

# “Eurovision-2012” əcnəbi homoseksuallar üçün toplantı yeri olacaq


Homoseksualların hər il Braziliyada keçirdiyi iftixar yürüşü. San Paulo, 6 iyun 2010

Homoseksuallara aid nighttours.com saytı 2012-ci ildə dünya ölkələrində bu cür cinsi azlıqların kütləvi toplaşacağı tədbirlərin təqvimini dərc edib. Həmin tədbirlərə həm homoseksualların dünya boyu keçirdiyi iftixar yürüşləri, həm də onların kütləvi şəkildə iştirak etdiyi qapalı tədbirlər aiddir. Bunların çoxunu homoseksuallar özləri təşkil edir, amma bəziləri homoseksuallarla bağlı olmasa da, onlar həmin tədbirlərə adi iştirakçılar kimi qatılmağı xoşlayırlar.

Nighttours.com saytı yazır ki, bu il mayın 22-dən 26-can homoseksualların beynəlxalq toplantı məkanı Bakı olacaq, konkret olaraq Bakıda keçiriləcək “Eurovision - 2012” mahnı müsabiqəsi. Amma söhbət Bakıda iftixar yürüşünün keçirilməsindən yox, geylərin, sadəcə, Bakıdakı tədbirə yollanıb orada tamaşaçı kimi iştirakından gedir. Son illərdə keçirilmiş bütün "Eurovision"larda homoseksualların fəal iştirakı müşahidə edilib.

Avropanın homoseksuallara yönəlik ən böyük xəbər saytlarından biri - pinknews.co.uk saytı isə ötənilki müsabiqədən dərhal sonra yazmışdı ki, 2001-ci ildə homoseksuallığa görə cəza Cinayət Məcəlləsindən çıxarılsa da, Azərbaycanda homoseksuallara münasibət mənfidir, onlar polis idarələrində təzyiqə məruz qalır, nikah bağlamasına icazə verilmir. Sayt yazır ki, buna görə bir çox homoseksuallar “Eurovision-2012” yarışması üçün Bakıya getməyə bilər.

Bakıda - homoseksuallara hüquqi, tibbi yardım üçün yaradılmış “Gender və Tərəqqi” İctimai Birliyinin sədri Kamran Rzayev deyir ki, qanunlarda homoseksuallara qarşı cəzalar nəzərdə tutulmasa da, belə insanlar cəmiyyətdə qınaqla üzləşirlər, onlara təzyiqlər olur.

**"BAKI 20 İL ƏVVƏLKİ BAKI DEYİL"**

*Bəs əgər “Eurovision” müsabiqəsi zamanı başqa ölkələrdən Bakıya gələn homoseksuallar burada hansısa təzyiqlər, qınaqlarla üzləşə bilərlərmi?*

- Yox, yox. Çünki Bakı 20 il əvvəkli şəhər deyil, dəyişib, hər şey də görüb. Düzdür, indi müsabiqəyə görə bir az çox danışılır bu barədə, amma Bakıda onlar var, gəzirlər də şəhərdə, heç kim də heç nə demir.

Prezident Administrasiyasının şöbə müdiri Elnur Aslanov isə bir müddət əvvəl BBC-yə müsahibəsində demişdi ki, Azərbaycanda homoseksuallara mənfi münasibət bəslənməsi haqda yayılmış məlumatlar yanlışdır.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## «Komfort» dayanacaq



***İntellektual idarə sisteminə keçid... Yükləyib: Rizvan***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

**necə dinləməli...**

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az



Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz